*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 19 noyabr 2016-cı il № 90 (2105) Qiyməti 25 qəpik

General-polkovnik Zakir HƏSƏNOV:

## Qarşıya qoyulan məqsəd və vəzifələr uğurla yerinə yetirildi



*Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin təsdiq etdiyi plana əsasən, səhra şəraitində qoşunların idarə olunması və silahların döyüş tətbiqinin yoxlanması məqsədilə Silahlı Qüvvələrdə keçirilən irimiqyaslı təlimlərə yekun vurulub. Bütün qoşun növlərinin hissə və bölmələrinin cəlb edildiyi manevrlər bir həftə davam etdi.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatlarında qeyd edildiyi kimi, təlimlərə ordumuzun böyük bir hissəsi cəlb edilmişdi. Hərbi Hava Qüvvələrinə məxsus onlarla döyüş təyyarəsi və helikopteri, müasir hərbi əməliyyatlarda daha çox tətbiq edilməyə başlamış pilotsuz uçuş aparatları, eləcə də raket və artilleriya qoşunlarının 700-dək qurğu və sistemi, Quru Qoşunlarının 150-dən artıq tank və digər zirehli texnikası, həmçinin Xəzər dənizinin Azərbaycana mənsub hissəsində Hərbi Dəniz Qüvvələrinə məxsus döyüş gəmiləri cəlb olunmuşdu. Göründüyü kimi, Silahlı Qüvvələrimizin arsenalında olan ən modern silahlardan və döyüş texnikasından təlimlərdə istifadə edilib. Ordu rəhbərliyinin məqsədi indiyədək döyüş hazırlığı tədbirlərində şəxsi heyətin qazandığı bilik və vərdişləri təlim prosesində praktik baxımdan icra etmək imkanlarını və döyüş şəraitinə yaxın vəziyyətdə nəyə qadir olduğunu sınaqdan keçirmək idi. Hərbi qulluqçularımızın, təlimə cəlb edilmiş bölmələrin fəaliyyəti bir daha göstərdi ki, ordumuz istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdir.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ötən həftə cəbhə bölgəsinə səfəri çərçivəsində ön xəttə gələrək təlimlərin ilk günündə zabit və əsgərlərimizlə görüşmüş, yüksək döyüş hazırlığı və nizam-intizamı ilə fərqlənən hərbi qulluqçuları mükafatlandırmışdı. Dövlət başçısının birbaşa ön xətdə şəxsi heyətə baş çəkməsi onların döyüş ruhunun daha da yüksəlməsinə böyük təsir göstərmiş və qarşıya qoyulmuş tapşırıqları uğurla yerinə yetirməyə ruhlandırmışdı.

Azərbaycan Silahlı Qüvvələrinin irimiqyaslı təlimləri çərçivəsində Naxçıvan Muxtar Respublikasında Əlahiddə Ümumqoşun Ordunun birləşmə, hissə və bölmələrinin şəxsi heyəti və hərbi texnikası da döyüş təyinatı rayonlarına çıxarıldı və peşəkarlıq səviyyəsinin daha da yüksəldilməsi məqsədi ilə qarşıya qoyulmuş təlim tapşırıqları müvəffəqiyyətlə yerinə yetirildi.

Təlimlər zamanı Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyilə qoşunların döyüşə tam hazırolma vəziyyətinə gətirilməsi və yenidən qruplaşması, müdafiənin aparılması, əks-hücum əməliyyatının hazırlanması və keçirilməsi üzrə tapşırıqlar icra olunurdu.

**(Ardı 2-ci səhifədə)**

# Cəbhə bölgəsində irimiqyaslı təlimlərin yekunlarına dair kollegiya iclası keçirilib






*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə nazirliyin və Silahlı Qüvvələrin rəhbər heyəti, birlik və birləşmələrin komandir və qərargah rəisləri, eləcə də məsul zabitlərin iştirakı ilə irimiqyaslı təlimlərin yekunlarına dair kollegiya iclası keçirilib.*

Əvvəlcə ümummilli lider Heydər Əliyevin, eləcə də ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Kollegiya iclasında çıxış edən Müdafiə naziri təlimlərin nəticələrini təhlil edərək bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təsdiq etdiyi plana əsasən, müxtəlif poliqonlar və təlim sahələrində keçirilən irimiqyaslı təlimlərdə qarşıya qoyulan məqsəd və vəzifələr uğurla yerinə yetirilib.

Nazir bütün qoşun növ və qisimləri, xüsusi təyinatlılar, təminat vasitələri tərəfindən döyüş şəraitinə maksimal uyğunlaşdırılmış vəziyyətdə imkanları praktiki tətbiq edilərək təlim-döyüş tapşırıqlarının tələb olunan səviyyədə icrasına nail olunduğunu qeyd edib, həmçinin döyüş atışlarının icrası, bölmələrin və atəşin manevrlərinin həyata keçirilməsi zamanı komandirlərin və şəxsi heyətin peşəkarlığını yüksək qiymətləndirib.

Şəxsi heyətin döyüş qabiliyyəti və mənəvi-psixoloji hazırlığını xüsusi qeyd edən Müdafiə naziri belə təlimlərin keçirilməsinin əhəmiyyətini vurğulayaraq, Ali Baş Komandanın Silahlı Qüvvələr qarşısında qoyduğu müvafiq tapşırıqları komandir-rəis heyətinə çatdırıb.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti,**
**fotolar**
**çavuş**
**Vüsal HƏMİDOVUNDUR**

## General-polkovnik Zakir HƏSƏNOV:

# Qarşıya qoyulan məqsəd və vəzifələr uğurla yerinə yetirildi



**(Əvvəli 1-ci səhifədə)**

Təlimlərin birinci mərhələsində HHQ, HDQ və Quru Qoşunlarının döyüş hazırlığı vəziyyətinin yoxlanılması uğurla yerinə yetirildi. Müasir ümumqoşun əməliyyatları zamanı tələb olunan zəruri keyfiyyətlər səhra şəraitində şəxsi heyət tərəfindən nümayiş etdirildi.

Ən müasir döyüş vasitələrilə təmin edilmiş bütün qoşun növlərinin təlim zamanı birgə fəaliyyəti bacarıqla təmin edildi, bölmələrimiz havada, quruda və suda təlim tapşırıqlarını qarşılıqlı əlaqəli şəkildə yüksək peşəkarlıqla yerinə yetirdilər. Eyni zamanda müdafiə və hücum əməliyyatlarının aparılması üçün uzlaşdırılmış birgə fəaliyyət tapşırıqlarının yerinə yetirilməsi zamanı hərbi hava və hava hücumundan müdafiə sistemlərindən, Xəzər dənizinin Azərbaycana mənsub hissəsində döyüş gəmilərindən məharətlə istifadə olundu. Xəzər dənizinin əməliyyat zonasında enerji infrasrukturunun mühafizəsi, terror-diversiya qrupu tərəfindən "ələ keçirilmiş" gəminin xüsusi təyinatlılar tərəfindən yüksək peşəkarlıqla "azad edildi". Qərargahlar tərəfindən əməliyyatlar peşəkarlıqla hazırlandı, qarşılıqlı fəaliyyət və təminat operativ olaraq təşkil edildi.

Müasir ümumqoşun döyüşünün prinsiplərinə riayət edilərək ərazinin və havanın mürəkkəb şəraitində və şərti düşmənin ehtimal olunan fəaliyyəti nəzərə alınaraq qoşunların, eləcə də idarəetmə sistemlərinin daha sıx qarşılıqlı tətbiqi həyata keçirildi.

Təlimə cəlb edilmiş bölmələr səhra şəraitində təlimin əsas mərhələsində döyüş atışlarını yerinə yetiriblər. Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatlarında qeyd edildiyi kimi, plana müvafiq olaraq, bütün qoşun növlərinin arsenalında olan müasir silah və texnikanın praktiki tətbiqi ilə təlim-döyüş tapşırıqları icra edildi. Müxtəlif poliqonlarda, səhra şəraitində, təlim sahələrində, avadanlıqla təchiz edilmiş digər nöqtələrdə döyüş atışları, bölmələrin və atəşin manevrləri peşəkarlıqla həyata keçirildi.

Zabit və əsgərlərimiz, hərbi mütəxəssislərimiz döyüş hazırlığı prosesində mənimsədikləri bacarığı təlim meydanında məharətlə ortaya qoymağı, qarşıya qoyulan tapşırıqları uğurla icra etməyi, hava, suüstü və yerüstü hədəfləri sərrast zərbələrlə məhv etməyi bacarmışlar.

Ayrı-ayrı qoşun növlərinin bölmələri təlim günlərində sübut etdilər ki, yüksək döyüş vərdişlərinə yiyələniblər və döyüş meydanlarında bu vərdişlərdən ustalıqla yararlanmaq imkanına malikdirlər.



Müdafiə naziri general-polkovnik Zakir Həsənov Silahlı Qüvvələrin rəhbər heyəti, birlik və birləşmələrin komandir və qərargah rəisləri, eləcə də məsul zabitlərin iştirakı ilə keçirilən kollegiya iclasında yekun olaraq bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən keçirilən irimiqyaslı təlimlərdə qarşıya qoyulan məqsəd və vəzifələr uğurla yerinə yetirilib.



2016-cı ilin başa çatmasına o qədər də çox vaxt qalmayıb və əslində, irimiqyaslı təlimlər cari ildə Silahlı Qüvvələrimizin döyüş hazırlığı sahəsində qazandığı nailiyyətlərə son geniş miqyaslı baxış xarakteri daşıyırdı. Təlimlər göstərdi ki, ordumuz döyüş potensialını ilbəil artırır və bölgəmizdə hərbi imkanlarına görə ən qüdrətli güc strukturudur. Bu gün iftixar hissilə deyə bilərik ki, Azərbaycanın qüdrətli ordusu var və o, hər bir vətənsevər azərbaycanlının qürur və güvənc yeridir.

**"Azərbaycan Ordusu"**

Gənc zabitlərimiz

# “Zabitəm - qürurluyam”

"Oxuduğum məktəbin kollektivi şəhid məzunları ilə həmişə fəxr edir". Bu sözləri ordumuzun gənc zabitlərindən biri - leytenant Nihad Şahbazovdan müsahibə alanda qeydə aldım. Ölkəmizin bir çox təhsil müəssisələrində erməni işğalçılarına qarşı mübarizədə qəhrəmanlıq nümunələri göstərmiş soydaşlarımızın xatirə guşələri yaradılıb. Nihadın təhsil aldığı Şirvan şəhər 3 saylı orta məktəbin də 8 məzunu Qarabağ müharibəsində şəhid olub. Və bu məktəbin kollektivi daim şəhid məzunlarının xatirəsini ehtiramla yad edir.



- Böyüyüb yaşa dolduğum illərdə həm ailəmizdə, həm oxuduğum məktəbdə, həm də cəmiyyət arasında müharibədən bəhs edən ağrılı-acılı xatirələri dinləyərək insanları şəhidliyə aparan yolun ən yüksək mənəviyyat zirvəsi olduğunu dərk etmişəm, - deyə leytenant uşaqlıq və yeniyetməlik dövrünün xatirələrindən söhbət açır. - Müharibə xalqımızı sınağa çəkib, kimin kim olduğunu hamıya göstərib. Vətənpərvər insanlar torpaq, millət və dövlətimiz naminə silaha sarılıb düşmən üzərinə savaşa atılanda dayım Mahir Əsgərov da onlardan biri olub. Qarabağ döyüşlərinin birində yaralanıb. Hər dəfə dayımgilə gedəndə ürəyimdə iftixar, qürur yaşamışam. Artıq 7-ci sinifdə oxuyanda bir gün evdəkilərə zabit olacağımı dedim...

Nihad Şahbazovun orta məktəbdə hərbə marağının yaranmasında Qarabağ müharibəsinin odundan-alovundan çıxmış hərbi hazırlıq müəllimi Azad Eyyubovun da böyük zəhməti olub. "Hərbi rəhbərimiz bizə keçdiyi döyüş yolundan, müharibədə rastlaşdığı hadisələrdən danışanda ona həvəslə qulaq asardım. O, bizə vətənpərvərliyi, müstəqil Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü qorumağa daim hazır olmağı aşılayırdı. Deyirdi ki, bu gün parta arxasında əyləşən şagirdlər yaxşı oxumaqla, təhsildə və tərbiyədə nümunəvi olmaqla özünü sabahın layiqli vətəndaşı kimi hazırlayır. Bununla da əsl vətəndaş olmağın sirlərini izah edirdi."

Müsahibim haqlıdır, bəzən bir şagirdin peşə seçimində, gələcəyini düzgün qurmasında da müəlliminin də rolu böyük olur. Bu mənada ümummilli liderimiz Heydər Əliyev müəllim, pedaqoq əməyinə yüksək qiymət verərək qeyd edirdi ki, həyatda müəllim peşəsi qədər şərəfli peşə tanımıram. Müasir dövrdə ölkəmizdə vətənpərvərlik tərbiyəsinə, gənc nəslə Vətən sevgisi kimi müqəddəs dəyərlərin aşılanmasına ciddi fikir verilir. Heç şübhəsiz ki, müsahibimin də bu gün nümunəvi zabit olaraq cəmiyyətdə ən hörmətli peşələrdən birini seçməsində məktəb illərində alışdığı Vətən sevgisinin əhəmiyyəti az olmayıb.

Gənc zabitlə söhbətimizdə şəxsi heyətin hərbi vətənpərvərlik tərbiyəsinə toxunuruq, bu günümüzün əsgərləri olan gənclərin Vətənin müsəlləh döyüşçüləri kimi yetişməsində mühüm əhəmiyyət kəsb edən amillərdən söhbət açırıq. Müxtəlif vaxtlarda müsahibə aldığım gənc zabitlər kimi, leytenant Şahbazov da qeyd edir ki, hər bir bölmə komandiri tabeliyindəkilərə şəxsi nümunə olmağı bacarmalıdır. Bundan ötrü isə zabitlərdən savadlı, hərtərəfli hazırlığa malik olmaq və ən başlıcası, vətənpərvər olmaq tələb olunur. "Sırada dayanan əsgəri döyüş növbətçiliyinə hazırlamaq zabitdən böyük məsuliyyət tələb edir. Axı əsgər döyüş növbəsini qəbul edəndə ona Vətənimizin ərazi bütövlüyünün müdafiəsində dayanmaq kimi məsul vəzifə həvalə edilir. Şəxsi heyəti belə bir vəzifəyə hazırlamaq üçün yüksək döyüş və mənəvi-psixoloji hazırlıq tələb olunur. Gənc döyüşçü üzərinə düşən vəzifənin mahiyyətini dərindən başa düşməsə, onu döyüş növbətçiliyinə təyin etmək olmaz."



- Həm hərbi liseydə, həm də ali hərbi təhsil müəssisəsində oxuduğum illərdə gələcəyin hazırlıqlı zabiti, komandiri olmağı qarşıma əsas məqsəd qoymuşdum, - deyə taqım komandiri bildirir. - Əgər qərargahda məni bir nümunəvi zabit kimi təqdim ediblərsə, deməli, qısa vaxtda komandanlığın etimadını qazana bilmişəm. Kursantlıq dövründə qazandığım hərbi biliklər, müəllimlərimizin dəyərli tövsiyələri indi köməyimə çatır. Bu gün cəbhə bölgəsində özümü bacarıqlı, vətənpərvər komandir kimi təsdiqləməklə tək valideynlərimə yox, həmçinin bir vaxt mənə dərs demiş, öyüdnəsihət vermiş unudulmaz müəllimlərimə də başucalığı gətirməyə çalışıram.

Taqım komandiri ilə söhbətimdən sonra yenə yolum səngərlərə, Vətənimizin göz bəbəyi kimi qorunduğu mövqelərədir. İnanıram ki, qəhrəmanlıq, mərdlik ünvanı olan bu yerlərdə yenə təcrübəli, vətənpərvər zabitlərimizlə tanış olacağam.

**Polkovnik-leytenant Arif PƏNAHOV, "Azərbaycan Ordusu"**

# İxtisas hazırlığı başlıca amildir

Leytenant Novruz Novruzovla komandiri olduğu bölmənin dayaq məntəqəsində görüşdüm. Düşmənlə üz-üzə olan postda yaradılmış səliqə-sahman, şəxsi heyətin nizam-intizamı adamda xoş ovqat yaradır. Vətənin ağır günündə ömrünü hərb işinə həsr edən zabitin xalqına, dövlətinə qəlbən bağlı olması məndə xoş duyğular oyatdı.

İstər arxa cəbhədə, istərsə də döyüş xəttində xidmət edən hərbi qulluqçular daim hazırlıqlarını artırırlar. Bunun üçün peşəkar zabit heyəti formalaşıb. Elə bölmə yoxdur ki, onun döyüş və mənəvi-psixoloji hazırlığı ilə təcrübəli zabitlərimiz məşğul olmasınlar. Səngərdə döyüş növbəsini təşkil edən gənc zabit N.Novruzov da məhz Vətənin təəssübünü çəkən oğullardandır.

Novruz əslən Qərbi Azərbaycandandır. Erməni vandallarının iki xalq arasında səpdiyi düşmənçilik toxumu onun da valideynlərini bir çox soydaşları kimi doğma ocaqlarından didərgin salıb. O, dədə-baba yurdunu görməsə də, hər zaman onun həsrətində olduğunu deyir. Doğmalarından ermənilərin xalqımıza qarşı törətdiyi cinayətləri çox eşidib. Kiçik yaşlarından düşmənə qarşı qəlbində kəskin nifrət hissi oyanıb. Qarşıya məqsəd qoyub ki, böyüyəndə mütləq hərbçi olsun.

Tale elə gətirib ki, Novruz öncə C.Naxçıvanski adına Hərbi Liseyi, daha sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini motoatıcı ixtisası üzrə bitirib. Novruz zabit kimi ön xətdə xidmətə başlayıb. O deyir:

- Səngər həyatı mənim üçün yad deyil. Kursant olduğum illərdə cəbhə bölgəsində təcrübə keçmişəm. İndi də tabeliyimdə olan əsgərlərin yüksək səviyyədə xidmət aparması üçün çalışıram. Düşmənlə qarşı-qarşıya xidmət etməyin məsuliyyəti daha çoxdu. Bunu əsgərlərə tez-tez xatırladıram. Başlıca məqsədimiz ayıq-sayıq xidmət etməyimizdir. Düşmən hər an postumuza basqın edə bilər. Ancaq biz bunun qarşısını vaxtında almağa və onu yerində məhv etməyə hazırıq. Yağıların bu cür cəhdləri çox olub. Əsgərlərimizin sayıqlığı sayəsində ermənilərin təxribatının qarşısı vaxtında alınıb.



Leytenant Novruzov vətənpərvər bir ailədə dünyaya göz açıb. Əmisi Vaqif Qasımov Qarabağ müharibəsi zamanı yadelli işğalçılara qarşı döyüşlərdə ağır yaralanıb. Dayısı Zamin Mirzəyev də ordu sıralarında zabit kimi xidmətini davam etdirir.

Leytenant N.Novruzov şərəfli xidmətini ruh yüksəkliyi ilə davam etdirir. Qəlbən bağlı olduğu hərb işini daha çox öyrənməyə çalışır. İstehkam qurğularının tələblərinə cavab verən blindaja bitişik kiçik otağa keçirəm. Burada balaca yazı masası var və üzərində döyüş nizamnamələri, hərb elminə dair müxtəlif ədəbiyyatlar da üst-üstədir. Novruz xidmətdən vaxt ayırıb həm də nəzəri biliklərini artırmağa çalışır. O qazandığı biliklərdən hər gün yararlandığını deyir.

Tabeliyində olan əsgərlərin döyüş və mənəvi-psixoloji hazırlığı taqım komandiri üçün əsasdır. Bu səbəbdən də o, daim əsgərlərin ixtisas hazırlığına önəm verir. Yaxşı bilir ki, onların döyüşə hazırlığı uğura təminat verən başlıca amillərdən biridir.

**Mayor Bəxtiyar ƏLİYEV, "Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

*"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır"*

# Nümunəvi tankçı

*Tank elə hərbi texnikadır ki, onu mükəmməl idarə etməyi bacardıqda, heyətin bütün üzvləri bir-birini başa düşdükdə, komandir, tuşlayıcı və sürücü-mexanik öz funksiyasını mükəmməl yerinə yetirdikdə döyüş meydanında düşmənə qarşı olduqca zəhmli və məhvedici qüvvəyə malik olur. İnamla demək olar ki, "N" hərbi hissəsinin tankçıları buna qadirdirlər. Onlar aprel döyüşlərində işğalçı Ermənistan ordusunun bölmələrinə ağır zərbələr endirmişdilər. Bu gün də tank heyətləri döyüş hazırlığını artırmaqla ordumuzun gücünə güc qatırlar.*





- Tankçılarımız döyüş hazırlığını daim yüksəltməklə məşğuldurlar, - zabit Niyazi Dadaşov bizimlə söhbətində bildirdi. - Döyüş hazırlığı planına uyğun olaraq, hərbi hissəmizin şəxsi heyəti, o cümlədən tank heyətləri ilin əvvəlindən taktika və ixtisas hazırlığı məşğələlərinə cəlb olunur, sürücü-mexaniklər praktik sürmələr həyata keçirirlər.

Hərbi hissədə bacarıqlı tankçılar çoxdur. Qərargahda zabitlərlə söhbət edərkən ən yaxşılar sırasında gizir Umar Ömərovun da adını çəkdilər. Ona görə zabit Niyazi Dadaşovla həmin tank bölməsinə yollandıq. Döyüş texnikasının təcrübəli komandiri ilə görüşüb yaxından söhbət etdik.

Umar Ömərov Balakən rayonunun Talalar kəndindəndir. O, ordu sıralarına 1996-cı ildə çağırılıb və o vaxtdan hərbi xidməti özünə peşə seçib. Müddətli həqiqi hərbi xidmətini başa vurmamış taleyini birdəfəlik ordu ilə bağlamaq qərarına gəlib. Umar Azərbaycan Silahlı Qüvvələrində ləyaqətlə tankçı kimi xidmət edir. Dekabrda xidmətinin 20 ili tamam olacaq.

- Əsgər kimi tank bölməsində xidmət edirdim, - gizir Umar Ömərov deyir. - Uşaqlıqdan texnikaya məndə böyük həvəs vardı. Əsgəri peşəmi səylə öyrənir, işimə məsuliyyətlə yanaşırdım. Ona görə komandirlərim də mənə yaxşı tankçı kimi həmişə xoş münasibət göstərirdilər.

Bir il xidmət etdikdən sonra komandanlıq nümunəvi əsgər Umar Ömərova tank komandiri ixtisasına yiyələnmək üçün Gizirlər Məktəbində oxumağı təklif ediblər. Əsgər ailəsilə məsləhətləşdikdən sonra arzu və istəyinə uyğun hərəkət edib.

- Gizir Ömərov bölməmizin ən çalışqan, hazırlıqlı tankçılarından biridir, - zabit Niyazi Dadaşov deyir. - Onun komandiri olduğu heyət həmişə döyüş bacarığı ilə müsbət mənada fərqlənib. Təlim və məşğələlərdə əməli ilə sübut edib ki, tankçı kimi verilən döyüş tapşırıqlarını axıradək yerinə yetirməyə qadirdir.

Hərbi peşə, şübhəsiz, çətin peşədir və yalnız cəsurlar çətinliklərdən qorxmurlar. Ən başlıcası isə Vətəni sevən, onun uğrunda fədakarlığa hazır olan oğullar bu peşəni seçirlər. Gizir Ömərov da belələrindəndir. Nümunəvi, peşəkar tankçı kimi hərbi hissədə hörmət qazanıb. Dəfələrlə komandanlıq tərəfindən mükafatlara layiq görülüb. Xidmətindən razıdır, Vətənə qulluq etməsindən qürur duyur.

- Bu gün də seçimimdən narazı deyiləm, - gizir bildirir. - Öz sənətimi sevirəm və tank komandiri kimi vəzifəmin öhdəsindən gəlməyi bacarıram. Rusiyada keçirilən beynəlxalq tank biatlonu yarışlarına, görünür, gizir Ömərovun seçilib göndərilməsində bu amillər rol oynayıb.

Onu da qeyd edim ki, Rusiyanın Alabino poliqonunda keçirilən Beynəlxalq Ordu Oyunlarında iştirak etmək üçün tank heyətləri seçilərkən gizir Ömərov da bacarıqlı tankçı kimi komandaya qatıldı.

Rusiyanın Alabino təlim mərkəzində avqustun 1-dən 15-dək keçirilən tank biatlonu yarışlarında ilk dəfə çıxış etmələrinə baxmayaraq tankçılarımız yetərincə ümidverici nəticə göstərməyi bacardılar.

Tankçılarımız birinci mərhələdə öz qrupunda birinci oldular. Digər bir qrupumuz isə biatlon yarışlarında ən yüksək nəticəyə nail oldu və 24 dəqiqəyə mərhələni başa vurdu. Tuşlayıcı operatorlarımız atışlarda yüksək ustalıq nümayiş etdirdilər və göstərdilər ki, Azərbaycan tankçıları peşəkarlıq və döyüş hazırlığının səviyyəsi baxımından heç kimdən geri qalmırlar...

Hazırda hərbi bölmədə döyüş hazırlığı tədbirləri vaxtında və yüksək səviyyədə yerinə yetirilir. Sürücülük və atəş hazırlığı dərsləri vaxtında həyata keçirilir. Bütün heyətlər peşəkar tankçılardan təşkil edilib, gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları daim öz döyüş vərdişlərini möhkəmlədirlər. Təcrübəli tankçı kimi gizir Umar Ömərov hər an silahdaşlarına kömək etməyə, öz bilik və bacarığını onlarla bölüşməyə hazırdır.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Hərbi qulluqçumuz şəhid olub

Noyabrın 15-də xidməti vəzifələrini yerinə yetirərkən düşmən tərəfindən açılan atəşdən Silahlı Qüvvələrimizin hərbi qulluqçusu Məlikov Aqil Qismət oğlu şəhid olub.

Ermənilərin növbəti təxribatı nəticəsində şəhid olan hərbi qulluqçu Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmrinə əsasən, ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalına təqdim olunub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin yaxınlarına, əzizlərinə dərin hüznlə başsağlığı verir və səbr diləyir!

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***18 noyabr 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 38 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Barekamavan kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı kəndində, Berd rayonunun Ayqepar və Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli və Ağbulaq kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Şirvanlı, Yusifcanlı, Sarıcalı, Cəvahirli, Baş Qərvənd, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.



# Təcrübə böyük məktəbdir

*Hansı sənətin sahibi olursansa ol, gərək öz işini sevəsən. Ömrünü həsr etdiyin və dərindən bağlandığın peşənin mükəmməl bilicisi olasan.*

Cəbhə bölgəsindəki "N" hərbi hissəsində xidmət edən baş gizir Yusif Nəbiyev də sənətinin peşəkarıdır. Burada ezamiyyətdə olarkən "Nümunəvi xidmət" rubrikasına yazı hazırlayacağımı bildirəndə baş gizir Yusif Nəbiyevin haqqında yazmağı məsləhət gördülər. Yusif seçdiyi peşənin sirlərini dərindən öyrənib. Yüksək intizamı, məsuliyyətliliyi və işgüzarlığı ilə seçilib. Üzərinə düşən tapşırıqların öhdəsindən daim bacarıqla gəlib. Artıq təcrübəli hərbçi kimi sənətinin sirlərini tabeliyindəkilərə də böyük həvəslə, yorulmadan öyrədir.

Baş gizir 20 ilə yaxındır ki, hərbi xidmətdədir. Əksər xidmət müddətini cəbhə bölgəsində keçirdiyini və hansı hisslərin onu ordumuzun sıralarına gətirdiyini deyən Y.Nəbiyev bildirir ki, vaxtilə xalqımızın başına gətirilən faciələr - 20 Yanvar, Xocalı soyqırımı qəlbində düşmənə nifrət hissini daha da artırıb. Torpaqlarımızı işğal edən ermənilərə qarşı döyüşməyə, Vətənin keşiyində dayanıb onu yağılardan qorumağa söz verib və hərb sənətini seçməyi qarşısına məqsəd qoyub. Şəki şəhər Aydınbulaq kəndində dünyaya göz açan Yusif taleyini hərb sənətinə bağlayıb. Beləliklə, 1997-ci ildə Gizirlər Məktəbində oxuduqdan sonra iki il Naxçıvan Muxtar Respublikasında "N" hərbi hissəsində xidmət edir. Sonra onun xidmət yolu cəbhə bölgələrindən - Füzulidən, Tərtərdən keçir.

İllər ərzində işinə olduqca məsuliyyətli, vəzifə borcuna prinsipial yanaşması onun bir hərbçi kimi xarakterik cəhətləridir. Xidmət etdiyi hərbi hissədə gizir Nəbiyevi işinin peşəkarı kimi tanıyırlar.

Öyrənirəm ki, təcrübəli gizir aprel döyüşlərinin fəal iştirakçısı olub. O, bu döyüşlərdə fərqləndiyinə görə hərbi hissə komandanlığı tərəfindən mükafata, fəxri fərmana layiq görülüb.

"Hər zaman olduğu kimi, bu gün də Vətənin keşiyində, torpaqlarımızın müdafiəsində ayıq-sayıq əsgərəm. İçdiyim hərbi andıma sadiqəm. Torpaqlarımızın işğaldan təmizlənməsi naminə canımdan, qanımdan keçməyə hər an hazıram, Vətənə xidmətimdən qürurluyam", - Yusif deyir.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Yüksək tibbi xidmət naminə

*Azərbaycanın dövlət rəhbərliyi səviyyəsində ordu quruculuğunun daha da inkişaf etdirilməsinə göstərilən diqqət və qayğı hərbi hissələrdə sosial-məişət şəraitinin xeyli yaxşılaşmasına səbəb olub. Bu gün cəbhə bölgələrində elə bir hərbi hissə tapılmaz ki, orada ürəkaçan şərait olmasın. Hərbi bölmələrdə yaradılan müasir məişət şəraiti, həmçinin şəxsi heyətin düzgün qidalanması və əşya-ərzaq təminatının yaxşılaşdırılması şəxsi heyətin sağlamlığının qorunması üçün əsas amillərdir. Artilleriya bölmələrindən birində bu fikrin təkrar təsdiqini tapdıq.*



Müasir hərbi hissənin şəraiti böyük quruculuq işlərinin görülməsindən xəbər verir. Əsgər yataqxanası, yeməkxana və hamam-camaşırxana ilə yanaşı, tibb məntəqəsi də müasir səviyyədə inşa edilərək şəxsi heyətin istifadəsinə verilib.

Səhər tezdən hamı kimi, hərbi tibb işçiləri də xidmət yerindədir. Bizimlə görüşən tibb xidməti mayoru Rahim Muxtarovla tanışlıqdan öyrənirəm ki, 13 ildir Azərbaycan Ordusu sıralarında hərbi səhiyyə sahəsində çalışır. Azərbaycan Tibb Universitetinin məzunu olan müsahibimiz orduya gəlməzdən əvvəl doğulduğu Astara rayonundakı iri yaşayış məntəqələrindən birində baş həkim işləyib. Amma bir hərbi həkim kimi Vətənimizə töhfə vermək amalı onu orduya gətirib. Aprel döyüşlərinin fəal iştirakçılarından olan tibb xidməti zabiti hərbi xidmət dövründə ürəkdən sevdiyi peşəsinin sirlərini gənc həmkarlarına da aşılamağı özünə mənəvi borc bilib. Hansı hərbi bölmədə xidmət edibsə, orada tibb xidmətinin arzulanan səviyyədə qurulmasi üçün əlindən gələni əsirgəməyib.

- Müxtəlif bölgələrdə hərbi xidmətdə olan zaman əsas amalım mənə ümidli olan xəstələrimə şəfa vermək olub, - deyir Rahim həkim. - Əsgərlərə tibbi xidmət göstərəndə isə müqəddəs bir vəzifənin - Vətənimiz qarşısında bir hərbçi borcumun məsuliyyətini hiss etmişəm. Torpaqlarımızı yağılardan göz bəbəyi kimi qoruyan oğulların dərdinə məlhəm tapanda, sarğısını dəyişəndə, ən başlıcası isə, xəstələnmə riskinin qarşısını vaxtında alanda özümü xoşbəxt sanmışam. Bu gün vəzifəmizdən asılı olmayaraq Vətənimiz üçün gərəkli bir ömür yaşamalıyıq.

Həkim söhbətimizdə bildirir ki, aprel döyüşləri başlananda, o da başqa həmkarları kimi bir müddət ön xətdəki bölmələrə ezam olunub və üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlib. Müasir dövrdə ölkəmizdə hərbi səhiyyənin inkişafından fəxr hissi ilə söhbət açan müsahibim qeyd edir ki, əvvəlki illərlə müqayisə ediləndə bu gün çox böyük işlər görülüb. "Dövlətin və xalqın ordumuza olan güclü dəstəyi bütün sahələrdə olduğu kimi, hərbi tibb xidmətinin də müasir səviyyədə inkişafına səbəb olub. Alınan yeni tibb avadanlıqları müayinənin dəqiq aparılmasına kömək edir. Artıq bir çox hallarda özümüz xəstəni düzgün müayinə edirik, əgər zərurət yaranarsa, xəstə səhra hospitalına təxliyyə edilir və ona lazımi tibbi xidmət göstərilir. Ən başlıcası isə, hazırda xəstələnmə faktına çox az rast gəlinir, çünki hərbi hissələrin hamısında əlverişli sosial şərait yaradılıb".

Sonra tibb məntəqəsində gənc həkim tibb xidməti leytenantı Niftəli Niftəliyevlə tanış oluruq. Hərbi tibb fakültəsinin builki məzunu olan həkim bildirir ki, müraciət edən hərbi qulluqçulara vaxtında və dəqiq tibbi xidmət göstərmək onun əsas vəzifəsidir.

Gizir Həsən Qaraşlı isə Hərbi Tibb Fakültəsinin Feldşerlər Məktəbini 3 il əvvəl bitirib. Müqəddəs peşəsində həvəslə çalışdığını deyən gizir tibb məntəqəsindəki şəraitdən ağızdolusu danışır və Rahim Muxtarov kimi təcrübəli hərbi həkimlə çiyin-çiyinə çalışmasından qürur duyduğunu bildirir.

Tibb məntəqəsində müayinə olunan hərbi qulluqçular da söhbət zamanı onlara göstərilən diqqət və qayğıdan, xoş münasibətdən razılıq etdilər.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**




# Divar mətbuatı güclü təbliğat vasitəsidir

*Silahlı Qüvvələrdə şəxsi heyətin ictimai-siyasi hazırlıq sisteminin düzgün təşkil olunması orduda döyüş qabiliyyətinin yüksək olmasının əsas göstəricisidir. Bəli, bu istiqamətdə atılan ciddi addımlar onu deməyə əsas verir ki, hərbi qulluqçularımızın ictimai-siyasi hazırlığı hər zaman olduğu kimi, bu gün də yüksək səviyyədə qurulub. Qeyd edək ki, şəxsi heyətin ictimai-siyasi hazırlığında divar mətbuatı xüsusi yer tutur. Divar mətbuatı orduda yayılan ən geniş təbliğat vasitəsidir. Hər bir hərbi hissədə divar mətbuatı fəaliyyət göstərir. Önəmlisi odur ki, burada yer alan yazılar şəxsi heyətin ictimai-siyasi hazırlığının artırılmasında mühüm rol oynayır.*

Hərbi hissələrdə ezamiyyətdə olduğum zaman divar mətbuatı ilə maraqlanıram. Cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsində də şəxsi heyətin hazırladığı aylıq divar qəzeti diqqətimi çəkir. Qəzetin adı, rubrikalar üzrə yazıların yerləşdirilməsi təbliğat vasitəsinin mükəmməl hazırlandığını göstərir. Hərbi hissənin zabiti Azər Məmmədov şəxsi heyətin mənəvi-psixoloji hazırlığında divar mətbuatının nə qədər önəm kəsb etməsindən danışır:

- İlk gündən hərbi hissəyə daxil olan hərbi qulluqçu əyani olaraq divar mətbuatındakı yazılarla maraqlanır. Əsgər divar qəzetindən nizam-intizam, döyüş və idman hazırlığı, qoşun xidməti, digər tədbirlərlə bağlı məlumatları diqqətlə izləyir. Ona görə ki, burada əks olunan məlumatlar hər bir əsgərin xidmət dövrünü əhatə edir.

Biz hərbi hissədə zabitin dediklərinin şahidi oluruq. Həqiqətən də əsgərlərin divar qəzetinin yeni sayını necə böyük maraqla oxuduğu diqqətimizdən yayınmır. Burada yer alan bölmələrdə asudə vaxt, kütləvi idman tədbirləri, texnikalara qulluq, silahla sıra hazırlığı, "Açıq qapı" günü tədbirləri, ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin hərbi hissədə əsgər və zabitlərlə görüşləri haqqında məlumatlar verilib. Əlamətdar, tarixi günlər barədə yazılar da xüsusi haşiyələrdə təqdim olunur.

Zabit A.Məmmədov söhbətində onu da bildirdi ki, hər dəfə divar qəzetinin yeni sayı hazırlananda müasir Azərbaycan Ordusunun banisi ulu öndər Heydər Əliyevin Silahlı Qüvvələrimizin formalaşması və inkişafı barədə səsləndirdiyi kəlamlar yer alır.

Divar qəzetinin növbəti sayında Ümummilli Liderimizin "Ordu bizim ordumuzdur, ordu xalqımızın tərkib hissəsidir. Ordu ölkəmizin, millətimizin, dövlətimizin dayağıdır" kəlamı manşetdə verilib.

"Qəhrəmanlarımızı tanıyaq" lövhəsində Azərbaycanın Milli Qəhrəmanlarının fotoları əks olunub. Burada şəxsi heyət Qarabağ müharibəsində doğma Vətənimizin müdafiəsi naminə canını qurban verən döyüşçüləri yaxından tanıyır, onların ömür yolundan nümunə götürürlər.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

*Minnətdarlıq*

# "Mən əsgər anasıyam"



Bu günlərdə Silahlı Qüvvələrin bütün hərbi hissələrində təntənəli surətdə hərbi andiçmə mərasimləri keçirildi. Əlamətdar hadisə ilə bağlı hərbi hissələrin birində olarkən diqqətimi əsgər valideynləri cəlb etdi. Çöhrələrində təbəssüm, gözlərində sevinc yaşları görünən ata-analar boynuna-buxununa baxıb övladlarının Vətənimizin müdafiəsində müqəddəs borclarını şərəflə yerinə yetirəcəkləri ilə qürurlanırdılar. Son günlərini yaşayan payıza da həmin gün sanki bu xoş əhval-ruhiyyə sirayət etmişdi, ılıq yaz havası duyulurdu.

Mənəvi dəyəri heç bir hadisə ilə müqayisə edilməyən bu gündə əsgər valideynlərinin təəssüratlarını öyrənmək üçün onlara yaxınlaşıram. Almaz Əzizova Gəncə şəhərindən gəlib. Tibb bacısıdır. İlk övladı Cavidin hərbi andiçmə mərasimində iştirak edən ananın sevincinin həddi-hüdudu yox idi. İki oğul anası olan Almaz xanım deyir ki, o da Cavidi hərbi xidmətə yola salanda bütün analar kimi nigaran olub. "Övladımın necə bir hərbi hissədə, hansı şəraitdə qulluq etməsi, oradakı səliqə-sahman və xörəklərin necə hazırlanması haqqında fikirləşirdim. Lakin oğlumla ilk dəfə əlaqə saxlayarkən onun danışdıqlarından sonra artıq bütün nigarançılığıma son qoyuldu. Komandirlərindən, nizam-intizamdan, səliqə-sahmandan və keçirilən dərslərdən o qədər razı idi."

Andiçmə zamanı qardaşının cəld və çevik hərəkətlərlə komandaları yerinə yetirməsini diqqətlə izləyən Nailin hissləri-ni bizimlə bölüşərkən "Zamanı gələndə mən də Vətənimə layiqli əsgər olacağam" sözləri ilə sadəcə qürur duyula bilər.

Yaxınları ilə mərasimdə iştirak edən ana övladının xidmət yeri ilə yaxından tanış olub, gündəlik məişət şəraitini öz gözləriylə gördükdən sonra minnətdarlıq üçün sözləri ifadə etməkdə çətinlik çəkirdi. "Müasir isitmə sistemləri ilə qızdırılan əsgər yataqxanasını, səliqəli yataqcaqları görəndə ürəyimə yenidən rahatlıq gəldi. Hər tərəf təmiz və səliqəli idi. Əsgərlərin istirahəti, məişəti üçün yaradılan yüksək şəraitin şahidi olduq. Yeməkxanada xörəkləri qadın aşpazların hazırlamasını biləndə isə sevincdən ürəyim dağa döndü. Bu gün mən aprel döyüşlərində qələbə qazanan ordumuzun gücünün canlı şahidi oldum."

Əsgər anası ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident, Ali Baş Komandan İlham Əliyevə, Müdafiə naziri general-polkovnik Zakir Həsənova və hərbi hissənin komandir heyətinə öz minnətdarlığını bildirdi. Həyatda ən böyük qürurunu "əsgər anası" olaraq yaşadığını xüsusilə qeyd edən Almaz xanım öz övladının timsalında bütün gənclərə cansağlığı və hərbi xidmətdə uğurlar arzuladı.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

*Ordu quruculuğu*

# Keyfiyyəti dəyişməyə hesablanmış yeniliklər

*Son bir neçə ildə ordumuzda yetərincə nailiyyətlər əldə edilib. Yenilik, dəyişiklik, irəliləyiş potensialı var. Müasir dövr yeni metodlar, üsullar, təkmil taktika yaradır. Mövcud şərait bütün bunlardan səmərəli bəhrələnməyi, yenilikləri şəraitə uyğunlaşdıraraq tətbiq etməyi başlıca vəzifə kimi qarşıya qoyur.*





Dünya təcrübəsi göstərir ki, ordu quruculuğunda atılan addımlar ancaq illərlə qurulub yaradılmış mexanizmi dəyişməz halda qoruyub saxlamağa hesablanarsa, heç bir şey dəyişmədən davam edərsə, gec-tez bu proseslər nəinki ordunun döyüş qabiliyyətinin yüksəldilməsinə kömək etməyəcək, əksinə, Silahlı Qüvvələrin döyüşməyə qadir olan bir qurum olduğunu da şübhə altına alacaq. Deməli, ordunun ən müasir bir orduya çevrilməsini təmin etmək, çevik, daim döyüşə hazır vəziyyətdə olan, ən müasir texnikalarla, silahlarla təmin olunmuş, dövrün yüksək tələblərinə cavab verən, torpaqlarımızı işğaldan azad edə biləcək daha mobil, daha müasir, daha qüdrətli orduya çevrilməsinə nail olmaq lazımdır. Bu baxımdan Ali Baş Komandanın tapşırığına əsasən, Müdafiə Nazirliyinin rəhbərliyi müasirliyin və zamanın tələblərindən maksimum yararlanmağı, yenilənməyi tələb edir.

Təbii ki, arzu, amal varsa, düşüncə tərzi zamanla ayaqlaşmağa can atırsa, nəzərdə tutulanlara nail olunur və nəticədə uğur təmin edilir.

İstəyimiz mobil, ən yeni texnologiyalarla təmin edilmiş, hər an döyüşə hazır olan ordunun formalaşmasıdır. Son illərdə bu amil diqqətdə saxlanıldığından ordumuz hər növ xarici təhdidlərə cavab verməyə, ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsini, qorunmasını təmin edir, həmçinin, istənilən an işğal olunmuş torpaqlarımızı azad etməyə qadirdir.

İslahatlara start veriləndə hərbi qulluqçuların sosial hüquqları, imtiyazları nəzarətdə saxlanıldı, inkişaf etdirilməsi və məişət şəraitlərinin yaxşılaşdırılması da unudulmadı. Hərbi qulluqçuların və ailə üzvlərinin diqqət və qayğı ilə əhatə olunması ordu ilə xalq arasında münasibətlərin sağlam məcraya düşməsini də təmin etdi.

Sadalananlarla bağlı ötən il ərzində hansı işlər görülmüşdür, hansı yeniliklər həyata keçirilmişdir?

- Müdafiə nazirinin göstərişinə əsasən, dövrün tələblərinə cavab verməyən qərarlar, sərəncamlar, sənədlər təftiş-təhlil edildi, hüquqi sənədlərin, əsasnamələrin hazırlanması, yenilənməsi işi başlandı, hüquqi baza təkmilləşdirildi. Yenilərinə tələb yarandıqca bu iş daim davam etdirilir;



- təlim-tərbiyəyə, mənəvi-psixoloji təminata, milli-mənəvi dəyərlərə, nizam-intizama xüsusi önəm veriləcəyi bəyan edildi, hərbi psixoloqlar fəaliyyətə başladı;

- döyüş hazırlığına cavabdeh qurumların rolu və əhəmiyyəti yüksəldildi. Hərbi kadrların hazırlanması sistemi mərkəzləşdirildi və hərbi təhsildə ciddi islahatlara start verildi. Prezident İlham Əliyevin Azərbaycan Respublikası Müdafiə Nazirliyinin sistemində olan xüsusi təyinatlı təhsil müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi haqqında imzaladığı sərəncamla Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi və Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi Quru Qoşunları, Hərbi Hava Qüvvələri, Hava Hücumundan Müdafiə Qoşunları və Hərbi Dəniz Qüvvələri fakültələri yaradılmaqla Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə birləşdirildi;

- Silahlı Qüvvələrin ştat strukturu optimallaşdırıldı və qoşunların daha səmərəli idarə edilməsi məqsədilə yeni strukturlar yaradıldı;

- yeni düşüncə tərzinə malik, peşəkar, qarşıya qoyulan tapşırıqların daha səmərəli icrasına nail olmaq bacarığına malik olan hərbi qulluqçular seçilərək rəhbər vəzifələrə təyin edildi;

- müqavilə əsasında xidmətə keçid baş tutdu və islahatlar nəticəsində qoşunların döyüş hazırlığına birbaşa təsir edəcək bir çox vəzifələrə peşəkarların cəlb edilməsi həyata keçirildi. Təşkilati dəyişiklik nəticəsində bu kateqoriyadan olan hərbi qulluqçuların seçilməsi, vəzifələrə təyin edilməsi və təhsilə göndərilməsi birbaşa hərbi hissə komandirlərinə həvalə olundu;

- şəxsi heyətin təsərrüfat işlərindən azad edilməsinə başlandı və bu proses indi də davam etdirilir. Bütün şəxsi heyətin tam tərkibdə yalnız döyüş hazırlığı ilə məşğul olmasını təmin etmək üçün bir çox işlərə mülki şəxslər cəlb olundu;

- səfərbərlik və qoşunların komplektləşdirilməsi sistemi maksimum dərəcədə asanlaşdırıldı, ehtiyat qüvvələrin hazırlanması və təlimlərə cəlb edilməsi işi tamamilə yenidən quruldu;

- müasir silah və texnikalar dərindən öyrənilərək, döyüşdə tətbiqi üçün birbaşa qoşunların sərəncamına verildi və silahlanmaya qəbul edildi;

- xüsusilə Hərbi Hava Qüvvələri, onun tərkib hissəsi olan Hava Hücumundan Müdafiə Qoşunları, Hərbi Dəniz Qüvvələri, tank və digər zirehli texnika, raket və artilleriya hissələri, rabitə və idarəetmə sistemləri yeniləndi. Bunun nəticəsində ordu hərb elminin son nailiyyətlərindən bacarıqla istifadə etmək imkanı qazandı. Sistemli şəkildə müasir idarəetmə sistemləri alındı ki, bunlar da öz növbəsində ordunun döyüş hazırlığının yüksəldilməsinə və hərbi qulluqçuların peşəkarlığının artırılmasına müsbət təsir etməyə başladı. Eyni zamanda yüksək dəqiqlikli silahlardan maksimum istifadə etməklə baş tutacaq təmassız, texnoloji yeniliklərlə zəngin döyüş əməliyyatları istiqamətində də Silahlı Qüvvələrimizdə uğurlu işlərin bünövrəsini qoydu;

- qoşunlarda, yalnız sinif otaqlarında, xəritə, maket üzərində deyil, həmçinin, yeni tikilən poliqonlarda döyüş təlimləri keçirildi. Bütün səviyyələrdə, müxtəlif kateqoriyalı hərbi qulluqçuların cəlb edilməsi ilə keçirilən təlim-məşqələrin və döyüş atışlarının sayı əhəmiyyətli dərəcədə artdı. Hərbi Hava Qüvvələrinin uçuş saatları çoxaldıldı, aviasiya silahlarının praktiki istifadəsinə və radiolokasiya sistemlərinin daim yenilənməsinə xüsusi önəm verildi. Hərbi Dəniz Qüvvələri döyüş atışlı təlimlər keçirməklə praktiki vərdişlər təkmilləşdirildi;

- yerli müdafiə sənayesinin istehsal etdiyi məhsullarla təmin edilən ön xətt hərbi hissələri sutka ərzində düşmənin hərbi obyektlərini, hərəkətini izləmək, nəzarətdə saxlamaq və məhv etmək imkanı əldə etdilər;

- hərbi qulluqçuların ərzaq, geyim, əşya-əmlakla təminatında da keyfiyyətin ən önəmli göstərici olduğu tələb kimi qarşıya qoyuldu;

- şəxsi heyətin sağlamlığının qorunması ən vacib amil kimi irəli sürüldü. Yeni müasir tibbi avadanlıqlar, mobil səhra hospitalları, reanimobillər, sanitar helikopterlər alınaraq şəxsi heyətin istifadəsinə verildi;

- ictimaiyyətlə əlaqələr daha da gücləndirildi, "Açıq qapı" günlərinin keçirilməsi ənənə halını aldı, hərbi vətənpərvərlik mövzusunda tədbirlərin sayı artırıldı.

Deyilənlərin nəticəsi olaraq hərbi xidmət həyatda, cəmiyyətdə nüfuzlu bir sahəyə çevrildi.

Əgər Müdafiə Nazirliyinin son vaxtlar gördüyü tədbirləri tezislər əsasında nəzərdən keçirsək, görərik ki, çox qısa bir vaxtda böyük işlər yerinə yetirilib. Xüsusilə qeyd edilməlidir ki, qazanılan bütün nailiyyətlərin əsasında Azərbaycan xalqının, ölkə rəhbərliyinin diqqəti və qayğısı dayanır.

Bu günlərdə cəbhə bölgəsinə səfəri zamanı zabit və əsgərlərlə görüşən Prezident İlham Əliyev ordu quruculuğu barədə deyib: "Güclü orduların reytinqlərində Azərbaycan Ordusunun çox yüksək yeri vardır. Ordumuzun döyüş qabiliyyəti yüksək səviyyədədir, gündən-günə artır. Ordumuzda nizam-intizam hökm sürür. Ordumuzun maddi-texniki təminatı ən yüksək səviyyədədir. Biz son illər ərzində milyardlarla dollar dəyərində ən müasir silah-sursat, hərbi texnika almışıq. O texnikalar ən son texnologiyaya malikdir. Aprel döyüşləri bunu bir daha göstərdi."

Unutmayaq ki, hələ görüləsi işlər də çoxdur. Əminik ki, Ali Baş Komandanın rəhbərliyi ilə xalqımız, dövlətimiz, hərbçilərimiz bu işlərin öhdəsindən uğurla gələcəklər.

**İsa İSMAYILOV,**
**hərbi jurnalist**

Ordu və cəmiyyət

# “Biz də Vətən deyirik!”

*Dünən tarixdi. Sabahın tarixi bu gün yaşanılır. Sabahlar üçün yaşanılan bugünkü günlərin birində tarixləşən bir tədbirdəydim. Gənc əsgərlərin andiçmə mərasimi məni həmişə duyğulandırıb. İnanmaq istəyənlərin baxışları inandıranların baxışlarından üzülmür, üzülə bilmir. Bunca mehriban, bunca incə baxışların tünlüyündə bütün baxışları özünün əzizinin baxışı bilirsən.*



Gənc əsgərlərin andiçmə mərasimidi. Əsgər babası danışır. Səsində hiss edilməsi çətin olmayan kövrəklik də var - illər ötüşdü, qürur da - nə gözəl illərdi. Gəncədən Bakıyacan bu anları xəyalən yaşayıb, xəyalının gerçəkləşdiyi məqamın qüruru ürəyini dağa döndərib:

- Sizə baxıram, 55 il əvvəl yadıma düşür. Mən Pribaltikada hərbi and içmişdim, siz Azərbaycanda hərbi and içirsiniz. Mən SSRİ vətəndaşı kimi hərbi and içmişdim, siz müstəqil Azərbaycanın vətəndaşı kimi hərbi and içirsiniz. Biz kazarmalarda yatırdıq, siz böyük zövqlə tikilmiş ağban otaqlarda. Biz siyasətin əsgəriydik, siz Vətənin əsgərisiniz. Xoşbəxtsiniz, balalarım. Müstəqil dövlətin vətəndaşı kimi xoşbəxtsiniz, belə bir ordunun əsgəri kimi xoşbəxtsiniz. Nəvəm Fərid də sizin sıranızda...

Hamı - zabitlər də, əsgərlər də, valideynlər də ağsaqqalın səmimi kəlamlarını səmimiliklə dinləyirdi. İllər yormuş kişinin dedikləri kəlmə-kəlmə ağsaqqal öyüdünə dönüb dinləyənlərin varlığına hopurdu:

- Zamanı geri qaytarmaq mümkün olsaydı, sizin sıranızda olmağı ən böyük xoşbəxtlik bilərdim. Siz varsınız, bizə ehtiyac yoxdu. Olmayacaq da. Siz bizim istəyimizlə xidmət edəcəksiniz.

Nəsir Əliyev Gəncədən gəlib. Nəvəsinin andiçmə mərasimi onu bu yaşında uzaq yolun yolçusu eləyib. Hərbi xidmətdən qayıdandan sonra sürücü işləyib. İlləri zəhmətiylə uğurlayıb. Övladlarını da bir amalla böyüdüb: ata yurdunu sevin, Vətəni sevin, o illərdə "İş insanın cövhəridi", - deyərdilər. Nəsir Əliyev də övladlarına belə deyərdi...

Qarabağda vəziyyət gərginləşəndə oğlu Vasif də torpaqlarımızı müdafiə edənlərin - döyüşənlərin sırasındaydı. Dörd il səngər ömrü yaşadı Vasif. Yaralandı. Müalicə olundu. Yenidən döyüşdü. Müharibə veteranıdı. Hərbi and içən gənc əsgər Fərid onun oğludu...

- Dünyamız gözəl olsun. Əmin-amanlıq olsun. Əmin-amanlıq torpaqlarımızın işğaldan qurtuluşuyla bağlıdı, - Nəsir Əliyevin dediklərini azərbaycançılıq məfkurəsinin zərrələri bilirəm. "Düşmən çəkilib getməsə, danışıqlar səmərə verməsə, Ali Baş Komandanın əmriylə torpaqları işğaldan döyüşlə bu əsgərlər xilas eləyəcək. Bu yaşımda mən də onların sırasına qoşularam, nəvəmə əsgər yoldaşı olaram. Təki ev-eşiyindən iraq düşənlərin intizarına son qoyulsun, - Nəsir Əliyevin səmimi kəlmələri mənə aprelin ortalarında Lələtəpənin ətəyində əsasını qarşı tərəfə tuşlayan ağsaqqalın dediklərini xatırlatdı: "Sərkərdəmiz döyüş əmri versə, hamımız əsgər olacağıq"...

Nəsir Əliyev incə duyğuludu. Bəzən ürəyindən keçənləri şeirləşdirir də. Gənc əsgərlərə ağsaqqal tövsiyəsi kimi səslənən "Vətən oğlu" şeirinin bir misrası hamının düşüncələrinə hopdu: "Biz də Vətən deyirik!".

Nəsir Əliyev belə dedi...

Ağsaqqallar belə deyir...

Kəlmələr kəlam gücündədi...



**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Hərbi yeniliklər, ənənələr

## “Ural” hərbi yük avtomobili

Yaxın vaxtlarda Rusiyada hərbi maşınlar sırasına müasir "Ural-M" hərbi avtomobili də daxil ediləcək. Hazırda bu maşının bir neçə variantı mövcuddur və artıq onlar sınaqlardan uğurla keçib. "Ural-M" yük avtomobili "Ural-Next" ailəsinə aiddir.

"Ural-M" maşını özündə modernləşdirilmiş "Ural-4320" avtomobilidir. Maşının elementlərində bir sıra dəyişikliklər aparılıb, bütün aqreqatları çərçivə üzərində bərkidilir.

Maşının uzunluğu - 9 metr, təchiz olunmuş halda çəkisi - 8,25 ton təşkil edir. Onun yük hissəsində və ya gövdəsində 13 tona qədər yük daşımaq olar. Maşın 11,5 ton çəkili qoşma yedəyi dartmağa qadirdir. Beləliklə, tam yüklənmiş maşının çəkisi 21,3 ton təşkil edir. Üçoxlu şassidən istifadə etməsi maşının çəkisinin (yükün) oxlar üzrə bölünməsini təmin edir. Belə ki, qabaq hissəsinə 5,3 ton yük, qalan 16 ton isə arxa arabaya düşür. Bütün bunlara 285 at gücündə dizel mühərrikinin hesabına nail olur.



"Ural-M" maşını yükün çəkisindən asılı olaraq sürəti saatda 80 kilometrə qədər inkişaf etdirə bilər. Onun ehtiyat sürəti 1000 kilometr təşkil edir. Lazım olan hallarda dayaz su maneələrini də keçməyə qadirdir (suyun dərinliyi 1,75 metrdən artıq olmamaqla).

Modernləşdirilmiş "Ural-M" avtomobili bütün meteoroloji və iqlim şəraitində, keçidli və keçilməz yollarda insanların və yüklərin daşınması üçün nəzərdə tutulub. Sifarişdən asılı olaraq müxtəlif ağır yükləri daşıya bilər. Bu maşın hazırda sınaqlardan keçməkdədir və kütləvi istehsala hazırlanır.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyə altı ildən sonra İsrailə ilk dəfə səfir göndərir



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Baş nazirin beynəlxalq məsələlər üzrə müşaviri Kamal Ökəmin İsraildə səfir təyin olunduğunu bildirib.

Rəcəb Tayyib Ərdoğan İsrailin də Türkiyədə öz səfirini təyin etdiyini deyib. Bu təyinat noyabrın 15-də həyata keçirilib.

Beləliklə, Türkiyə altı illik fasilədən sonra İsrailə ilk dəfə səfir göndərir.

İki ölkənin diplomatik münasibətlərində böhran 2010-cu ildə İsrail hərbçilərinin Qəzzə sektorunun blokadasını yarmağa çalışan "Mavi Mərmərə" bərəsinə hücumundan sonra yaranmışdı.

## Əfqanıstanda polis məntəqəsinə hücum nəticəsində 13 nəfər ölüb



"Taliban" hərəkatının yaraqlıları Əfqanıstanın qərbində polis məntəqəsinə hücum ediblər. Hadisə nəticəsində azı 13 polis əməkdaşı həlak olub.

Hüquq-mühafizə orqanlarının məlumatına əsasən, insident cümə gününə keçən gecə Fərah əyalətində baş verib. Hələlik təfərrüatlar barədə məlumat verilmir.

Yerli sakinlərin sözlərinə görə, yaraqlılar əyalətin şərqində hücum zamanı silah və təhlükəsizlik qüvvələrinin bir neçə avtomobilini ələ keçiriblər. Habelə hökumət binaları dağıdılıb. Şahidlər nəzarət-buraxılış məntəqəsinin yaxınlığındakı polislərin hücumda əli olduğunu güman edirlər. Belə ki, hadisədən sonra onların bir neçəsi yoxa çıxıb.

## ABŞ-ın xam neft ehtiyatları artıb



ABŞ-ın xam neft ehtiyatları ötən hesabat həftəsində 5,274 milyon barrel artıb.

Bu barədə ABŞ-ın Enerji İnformasiya Administrasiyası (EIA) məlumat yayıb.

Analitiklər isə ehtiyatların 1,5 milyon barrel artacağını proqnozlaşdırırdılar. ABŞ-da xam neft ehtiyatlarının artması fonunda isə neftin qiyməti yenidən ucuzlaşmağa başlayıb.

## Belaruslu həkimlər ilk dəfə eyni vaxtda ürək və ağciyər köçürüblər



Belaruslu həkimlər ilk dəfə ürək və ağciyərin eyni vaxtda köçürülməsi üzrə əməliyyat aparıblar.

Bu barədə "Kardiologiya" Respublika Elmi Təcrübə Mərkəzinin direktoru Aleksandr Mroçek jurnalistlərə məlumat verib. A.Mroçek deyib: "Gənc cərrahlarımızdan ibarət briqada noyabrın 2-də ilk dəfə ürək və ağciyərin eyni vaxtda köçürülməsi üzrə əməliyyat aparıb. Əvvəlcə uzun sürən hazırlıq prosesi olub, ilk növbədə mütəxəssislər hazırlıq keçiblər. Əməliyyatdan 12 gün keçib, xəstənin vəziyyəti tədricən yaxşılaşır".

## Mozambikdə yanacaq tankeri partlayıb: 73 ölü, 100 yaralı



Mozambikin Malavi sərhədi yaxınındakı Tete şəhərində yanacaq tankerində partlayış baş verib. Partlayış nəticəsində 73 nəfər həlak olub, 100-ü yaralanıb. Yaralılar ətrafdakı xəstəxanalara yerləşdirilib.

Sözügedən yanacaq tankerinin hadisədən qabaq aşdığı və partlayışa isə tankerdən neft çəkməyə çalışan insanların səbəb olduğu bildirilir.

**AZƏRTAC-ın materialları əsasında**

# Həmkarlar arasında idman yarışları ənənəyə çevrilib



*Müdafiə Nazirliyi sistemində çalışan işçilərin və onların ailə üzvlərinin istirahəti, asudə vaxtının səmərəli təşkili Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin daim diqqət mərkəzindədir. BHİK-in təşkilatçılığı ilə keçirilən mədəni-kütləvi tədbirlər arasında idman yarışları önəmli yer tutur. Əməkdaşların fəal idman aləminə cəlb edilməsində əsas məqsəd sağlamlığın qorunub saxlanması və möhkəmləndirilməsidir.*

Milli Dirçəliş Günü ərəfəsində həmkarlar arasında stolüstü tennis üzrə turnir keçirilib. Müdafiə Nazirliyi Mərkəzi Hərbi Sanatoriyasının idman zalında turnirin mükafatları uğrunda Silahlı Qüvvələrə məxsus hərbi hissə və qurumların nümayəndələri mübarizə apardılar.

Hakimlər tərəfindən üç qrupa bölünən idman həvəskarları beynəlxalq qaydalara uyğun yarışdılar. Hər qrupdan ən yaxşı nəticə göstərmiş iki idmançı növbəti mərhələyə adlamaq imkanı əldə edirdi. Təşkilatın daha hazırlıqlı üzvləri rəqiblərini setlərdə üstələyərək mükafatlar uğrunda mübarizə aparmaq hüququ əldə etdilər. Final mərhələsində qarşılaşmalar daha baxımlı və gərgin keçdi. Güclülər qalib gələrək mükafatalayiq yerləri tutmağı bacardılar.

- Stolüstü tennis idmanı ölkəmizdə geniş yayılan idman növlərindən biridir, - bizimlə söhbətində Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Abiyat Ağadadaşova dedi. - Milli Dirçəliş Günü ərəfəsində təşkilatımızın üzvləri arasında belə bir yarış keçirmək qərarına gəldik. Ümumiyyətlə, il ərzində əməkdaşlarımız arasında müxtəlif idman növləri üzrə turnirlər təşkil edirik. Bundan əvvəl həmkarlar arasında mini futbol yarışı keçirdik.





Abiyat xanımın sözlərinə görə, belə mədəni-kütləvi tədbirlərin təşkil edilməsi həm əməkdaşların və ailə üzvlərinin asudə vaxtının səmərəli təşkili, həm də onların arasında sağlam və mehriban kollektivçilik münasibətinin saxlanması baxımından maraq kəsb edir. Stolüstü tennis yarışı da bu baxımdan xoş təəssüratla yadda qalıb.

Stolüstü tennis turnirində Cahandar Heydərov bütün rəqiblərinə qalib gələrək birinci yeri tutdu. Nurəddin Məmmədov ikinci, Əli Şahbazov üçüncü yerə layiq görüldü. Qaliblərə mükafatları Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Abiyat Ağadadaşova təqdim etdi.

Eyni zamanda təşkilatın yarışa qatılmış digər üzvləri də mükafatsız qalmadılar və onlara da turnirin xatirə hədiyyələri təqdim edildi.

Qeyd edək ki, oktyabr ayında Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin əməkdaşları arasında mini futbol üzrə turnir təşkil edilmişdi. Yarışa Silahlı Qüvvələrə məxsus hərbi hissə və qurumlardan 12 komanda qatılmışdı. Mini futbolçular Müdafiə Nazirliyi Mərkəzi Ordu İdman Klubunun idman zalında mübarizə apardılar. Beynəlxalq qaydalara uyğun dairəvi üsulla keçirilən turnirdə oyunları Cəlal Əzimlinin rəhbərliyilə hakimlər idarə edirdilər. Maraqlı idman mübarizəsi şəraitində keçən qarşılaşmalarda birinci yeri Müdafiə Nazirliyi Mərkəzi Hərbi Sanatoriyasının komandası tutdu. İkinci yerə "Topoqraf", üçüncü yerə isə MOİK-in komandası layiq görüldü. Qaliblərə pul mükafatları, iştirakçı təşkilatların nümayəndələrinə xatirə hədiyyələri təqdim edildi.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# Partlamamış hərbi sursat aşkarlanıb



Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinin (ANAMA) mütəxəssisləri Beyləqan rayonunun Birinci Şahsevən kəndində dəmiryol stansiyasının yaxınlığında beş top mərmisinin gilizini (boş), iki partlamamış hərbi sursatı - 122 millimetrlik (OF-462) və 125 millimetrlik top mərmilərini (OF-26) aşkar edərək götürüblər. Ümumilikdə 1500 kvadratmetr ərazi yoxlanıb.

ANAMA-nın mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, aprelin 7-dən noyabrın 15-dək agentlik tərəfindən Zərdab, Tərtər, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Goranboy, Tovuz, Qazax, Ağstafa, Samux, Göygöl, Şəmkir, Cəlilabad, Ucar, Astara, Salyan rayonlarında, Mingəçevir, Sumqayıt, Gəncə, Lənkəran, Şirvan və Bakı şəhərlərində ümumilikdə 649 ev və həyətyanı sahəyə, 3 hərbi hissəyə, 2 kənd qəbiristanlığına, 5 kənd orta məktəbinə, iki tibb məntəqəsinə, bir metal anbarına, 30 fermaya, əkin sahələrinə, bir şərab zavoduna, bir qoruq ərazisinə, bir çınqıl karxanasına və bir dəmiryolu stansiyasının ərazisinə baxış olub.

Təmizləmə əməliyyatları nəticəsində 3955 partlamamış hərbi sursat, piyada əleyhinə 15, o cümlədən üç "POMZ-2", iki "OZM-72", iki "siqnal minası" və tank əleyhinə 43 mina aşkar olunaraq zərərsizləşdirilib.

*Redaksiyamızın poçtundan*

# Təəssüratlarım yüksək oldu

Hörmətli redaksiya! Hər bir Azərbaycan vətəndaşı əsgərlik yaşı çatdıqda hərbi xidmətə yollanmalı, Vətənin müdafiəsində dayanmalıdır. Mənim oğlum Zaur da əsgəri yaşı tamam olduqda digər azərbaycanlı balaları kimi çağırış vərəqəsi aldı və onu hərbi xidmətə yola saldıq.



Bir ana kimi oğlum gedən gündən, nə gizlədim, nigaranlıq keçirirdim. Zaurun hansı şəraitdə xidmət etməsindən, qidalanmasından narahat idim. Ona görə oğlumun xidmət etdiyi hərbi hissəyə can atır, əsgərlərin məişət şəraitini görmək istəyirdim.

Ailəmiz Ucar rayonunun Qaradağlı kəndində yaşayır. Silahlı Qüvvələrdə andiçmə mərasimi keçiriləndə biz də Zaurun xidmət etdiyi hərbi hissəyə getdik.

Hərbi hissədə aldığım təəssüratlar çox yüksək oldu. Komandanlıq bizim üçün hər cür imkan yaratmışdı və istədiyimiz yerə gedə, hər şeylə maraqlana bilərdik. Əsgərlərin məişət şəraitilə tanış olduq. Hətta onlarla birlikdə yeməkxanaya gedib əsgərlərin necə qidalanmasını öz gözlərimizlə gördük. Yeməkxanada qadın aşpazlar işləyirlər və hərbçilər üçün dadlı Azərbaycan yeməkləri bişirirlər.

Bir sözlə, Vətənə övladlıq borcunu verən övladlarımız üçün çox yaxşı şərait yaradılıb. Əvvəllər narahat olsam da, indi arxayınam ki, oğlumun xidməti də, yaşadığı şərait də yüksək səviyyədədir. Zaur artıq beş aydır ki, xidmət edir, hərbi hissədə əsgəri ixtisasına yiyələnir. Öz hərbi peşəsini mükəmməl mənimsəməyə çalışır. Nizam-intizamlı olduğuna görə komandirləri oğlum barədə xoş sözlər söylədilər.

Buna görə dövlətimizin rəhbərliyinə və Silahlı Qüvvələrimizin komandanlığına öz minnətdarlığımı bildirirəm.

**Gültəkin SEYİDOVA,**
**Ucar rayonu**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Əbülfət QASIMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 566
Nüsxə 4650